**Samux şəhəri Azərbaycanın səfalı guşələrindən biridir. Buranın insanları da təbiəti kimi mülayim, qonaqpərvərdir. Samuxda mədəni-kütləvi tədbirlərin layiqincə keçirilməsi, bütün bayramların təntənəli şəkildə qeyd edilməsi artıq gözəl ənənəyə çevrilib.**



# Samuxda gördüklərimiz, eşitdiklərimiz

Şəhərdə 30 ildən artıqdır ki, uşaq musiqi məktəbi fəaliyyət göstərir. Bu təhsil ocağı şəhərin ictimai-siyasi həyatında, mədəni-kütləvi tədbirlərdə həmişə fəallıq göstərir. Keçən ilin ilk tədbiri 31 dekabr dünya azərbaycanlılarının həmrəylik günündə məktəbin xalq çalğı alətləri ansamblı geniş konsert proqramı ilə çıxış etdilər.

Xalqımızın ümummilli hüzn günü olan 20 yanvar faciəsi və 26 fevral Xocalı soyqırımına həsr olunmuş tədbirlərdə də məktəb kollektivi yaxından iştirak etmişdir. Şagirdlərin ifasında erməni vəhşiliyini əks etdirən müxtəlif səhnəciklər oynanılmış, erməni işğalçılarına nifrət dolu şeirlər səsləndirilmişdir. Gənclərin vətənpərvərlik ruhunu gücləndirmək üçün xalqımızın qəhrəmanlıqla dolu keçmişini əks etdirən tablolar nümayiş etdirilmişdir.

Mart ayında iki böyük bayramı samuxlular xüsusilə böyük təmtəraqla qeyd etmişlər. 8 mart Beynəlxalq Qadınlar bayramına həsr olunmuş tədbirdə musiqi məktəbinin şagirdləri biri-birindən maraqlı konsert proqramları ilə çıxış etdilər. "Qadın gözəllikdir", "Qadın anadır" mövzusunda çıxışlar edildi.

Şəhərin H.Əliyev adına parkında xalqımızın qədim və tarixi bayramı olan Novruz şənliklərində məktəbin kollektivi böyük həvəslə iştirak edib. Məktəbin xalq çalğı alətləri ansamblı və muğam sinfinin şagirdlərinin ifası hamını heyran qoydu. Bir-birindən maraqlı oyunlar, konsert proqramları şagirdlərin həqiqətən də musiqi təhsilinin, mədəni səviyyəsinin yüksəkliyindən xəbər verdi.

"31 mart - azərbaycanlıların soyqırım günü" ulu öndər H.Əliyev cənablarının imzaladığı fərman qan yaddaşımızı bir daha təzələdi. Hər il bu münasibətlə keçirilən tədbirdə müəllim kollektivi də yaxından iştirak edir.

**Məktəbin çox mehriban kollektivi var. Musiqi məktəbinin direktoru Ülviyyə xanım Nadirovanı hamı nəinki yaxşı pedaqoq, həm də gözəl insan kimi tanıyır. Təsadüfi deyil ki, rəhbərlik etdiyi bu musiqi məktəbinin yetirdiyi kadrlar həm yaxşı musiqiçi, həm də gözəl insan kimi hörmət qazanırlar.**

Samux şəhər UMM-də artıq 2007-ci ildən YAP Samux RT nəzdində ilk partiya təşkilatı fəaliyyət göstərir. Bu təşkilatın 30 nəfərdən çox üzvü var. Çox gözəl haldır ki, təşkilata üzv olanların əksəriyyətini gənclər təşkil edir. Samux şəhər UMM-i ilk partiya təşkilatının iş planına əsasən vaxtaşırı iclas və yığıncaqlar keçirilir, partiyanın xətti ilə keçirilən ictimai-siyasi tədbirlərdə partiya fəalları yaxından iştirak edirlər.

Lakin konsert zalının olmaması məktəbdə keçirilən müsabiqə və məktəbdaxili tədbirlərdə, qapalı akademik konsertlərdə, bəstəkarların yubileylərinə həsr olunmuş tədbirlərdə görülən işlərə müəyyən dərəcədə mane olur. Bu barədə məktəb kollektivi Samux Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev cənablarına müraciət edilmişdir..

2010-cu ilin fevral ayında Mədəniyyət və Turizm nazirinin müavini Sevda xanım Məmmədəliyeva məktəbdə olmuş, məktəbin kamançа və tar sinfinin şagirdlərinin ifasını dinləyərək çox bəyənmişdir. Sevda xanım məktəb kollektivinin bina tikintisi ilə bağlı haqlı iradının icra nümayəndəliyinin köməkliyi ilə həll olunacağına əmin olduğunu bildirib.

İlham Əliyev cənablarının 2009-cu ili uşaq ili elan etməsi münasibəti ilə məktəb kollektivi də bu sahədə bir sıra tədbirlər həyata keçirmiş, məktəbin istedadlı şagirdlərindən biri olan tar ixtisası üzrə III sinif şagirdi Əliyev Əlinin uşaq ilinə həsr olunmuş tədbirlər çərçivəsində solo konsertini keçirmişdir. Tədbirə rayonun idarə və təşkilatlarının nümayəndələri dəvət olunmuşdur.

Yüksək səviyyədə keçən solo konsertdə xarici və Azərbaycan bəstəkarlarının əsərləri səslənmişdir. Əliyev Əli Samux şəhər UMM-nin 2008-2009-cu tədris ilinin "Ən yaxşı şagirdi" elan olunmuş, ona xatirə hədiyyəsi və Fəxri fərman təqdim olunmuşdur. Məktəbimizin xor kollektivi hər il Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi baxış və müsabiqələrdə mütəmadi olaraq iştirak etmiş, Fəxri fərman və pul mükafatı ilə mükafatlandırılmışdır. Bu ilin aprel ayında məktəbin xor kollektivi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi Uşaq Musiqi və İncəsənət məktəbləri xor kollektivlərinin II respublika baxışında uğurla iştirak etmişlər.

Çox maraqlı haldır ki, hər il ənənəvi olaraq may ayının sonunda musiqi məktəbinin müəllimlərinin iştirakı ilə yekun konserti keçirilir. Bu konsertin maraqlı olması üçün hər cür tədbirlər həyata keçirilib.

Samux şəhər UMM-nin kollektivi 9 may Qələbə gününə və 10 may ümummilli lider, ulu öndər Heydər Əliyevin ad gününün yad edilməsinə həsr olunmuş "Gül bayramı" tədbirində həvəslə iştirak etmişdir.

Ölkənin birinci xanımı, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevanın xalqımızın qədim sənəti olan muğama dəstək və qayğısına cavab olaraq 2006-cı ildən məktəbin tarixində ilk dəfə olaraq muğam sinfi açılmışdır. 2010-cu il may ayının 18-də Astara rayonunda keçirilən Uşaq muğam ifaçılarının V Respublika müsabiqəsində muğam sinfinin şagirdləri Əliyev Əli, Xəlilov Vüsal fəxri fərmanla və Əhmədova Dilguşə diplomla mükafatlandırılmışdır. Sevindirici haldır ki, bu muğam sinfinin respublika səviyyəli müsabiqədə ilk uğurudur.

**Samuxda olarkən onu da öyrəndik ki, Samux şəhər UMM-nin kollektivi rayonun istedadlı şagirdlərinin aşkar olunması və onların milli vətənpərvərlik ruhunda tərbiyə olunması işində öz işlərini günün tələbləri səviyyəsində qurmağa və bədii təhsil sahəsində aparılan islahatların səmərəliliyinin artırılmasına çalışaraq daima yeni-yeni nailiyyətlər əldə etməyə çalışır. Biz də oradan xoş təəssüratla, nikbin əhvali-ruhiyyə ilə ayrılır, Samuxlulara hər sahədə olduğu kimi incəsənətimizin, mədəniyyətimizin daha da yaxşılaşması yolunda uğurlar diləyirik.**

**● Elmira MUSAQIZI**